

# Bəxtiyar Vahabzadə

toplayan:ali berazande(turk)
E.mail:turkbaris2003@yahoo.com

## Şəhid Məzarları

Gəlirik dünyaya bir amal üçün gədirik...
Yaşayır bu yurd, bu torpag !
Ölər bizim kimi vətən'də bir gün,
Vətəncün ölümə hazır olmasag !
Vətəni sevmirlər guruca sözlə,
Vətəndir yaradan, yaşadan bizi,
Biz də yeri gəlsə

Ölümümüzlə
Gəldik, yaşatmağa vətənimizi!
Neçə əsrlərə bəs edər ba'zən
Vətənə hay verən bir odlu səs də,
Dünən də bugün də yaşayır vətən,
Babək'in gırılan golları üsdə
Şəhid məzarları... Düşmən ganimi!
Vətənin köksündə vügarla durup
Mənim varlığımı bir tasdig kimi
Yurdun sinəsinə möhrlər vurup
Şəhid məzarları...

**Bu magbərələr**
**O əsrin bu əsrə uzanan eli**
**Basgınlar...**
**Hücumlar**
**Vuruşlar,**
**Nələr!**
**Bir halgın tarihi...**
**Aşgı, əməli!**
**Şəhid məzarları...**
**Məni,**
**Həm səni,**
**Bir yola çağırır,**
**Tək bir söz deyir**
**Bütün əsrlərin fikirlərini,**
**Bir fikrin oduna şö’ləlendirir,**
**Şəhidlər nur sağır amalımıza,**
**Həmişə yenilməz,**
**Həmişə mağrur!**
**Onlar Gonag gəlir hayalımıza,**
**Onlar ruhumuzda binalar gurur.**
**Şəhidlər sıçrayıp hayalımızdan**
**Ötür mahnısını**
**Ötən çağların.**
**Hayır dua verir bizə hər zaman,**
**Başına dolanıb od- ocagların**
**Şəhidlər boşlanır əsrlər üstdən,**
**Dolanır zamanə,**
**Dönür garinə**
**Necə yaşamağın, necə ölmeğin,**
**Təhrini öğrədir nəvələrinə,**
**Vətəni sevirəm deyən çox olar,**
**Deməyə nə var ki, dil yorulmasa.**
**Vətən də bizim tək ölər, yox olar,**
**Vətənin yolunda ölən olmasa.**

## Həyat yaşasın diyə

Çox gorxardım ölümdən
O məndən uzağikən
İndi yaxınımdadır
Bəs nəyə gorxmuram mən?
Gorxdum ya gorxmadım
Edər –gəlməz dir yolum
Gərçək budur:ömümə
Davasız təslim olum
Aldanıb nağılara
Uyma ölümsüzlügə
Ölüm yaşamalıdır
Həyat yaşasın deyə!

## Nisbilik

Günəşə baxandagaralır gözümdə
Işığın içində zülmət olurmuş?
İki sövən gəlbin govuşduğu yer
Kol dibi olsada cənnət olurmuş
Əzəldən nisbi dir gara da ağ da
Yaxın da ozag da təpə də dağ da
Dünən bayrag olan,söz bəd yağ da
dönüb birdən bir ğələt olurmuş
Höhmu daşdan keçər yalanın şərin
Ruhu unudulub mugədislərin
Amalı cibindən üngül kəslərin
Ən böyük tələbi minət olurmu.
Xeyrində şərində vəhdət dir aləm
Bir ucu sövinc.bir ucu ələm
Gorulan gələdə mənim budirəməm
Mənim rəgibimə fürsət olurmuş
Enişin gədrin bildik yoxuşda

Ağıl nə bilikdə ki yışda
Dünyanın ahəngi baharla gışda
Kədərdə sevincidə vəhdət olurmuş
Almalmız fikrimiz bir eşg bir həvəs
Öz-özünə cücərə bilməz
millət sevgisi ilə silahlanan kəs
Özü tək başına millət olurmuş

## Anam öldümü?

nə tez əllərini üzdün dünyadan
balani tək goyup nərəyə gittin?
nasil yox oluyormus bir anda insan
sanki bu dünyada hiç yox imişsin..

günəş ğurup etti..oda garardi...
bir anda yox oldun sən xəyal kimi.
şimdi düşünürüm səndən nə galdi..
gönlündə xatiran gara hal gibi...

məni boya başa yetirdin anna
bizə borçlu bildik hər zaman səni
sən məni dünyaya gətirdin anna
mənsə yola saldim dünyadan səni...

sən mənə beşiktə ninni çalmissin
bugün ninni çalsam sana mən də mi?
sənin şirin şirin ninnilərini
sana gaytarayim cənazəndəmi?

"yxun şirin olsun"diyerdin mənə
"yxun şirin olsun"deyim mi sənə
gərək mən basina dönüm dolanim,
məni hayat için həp uyutanim,

söyle ölümçün
nasil uyutayim səni mən bugün?

bu nasil dünyadir anlayamam mən,
cilvəsi cürbəcür ,rəngi cürbəcür
dün öz nəfəsiyle səni isidən
bugün buza dönüp,daşa dönüptür

bu nasil dünyadir..
insanoglunun
xəyali göktədir özü yerdədir..
sagkən omuzunda hayatin yükü
öləndə cəsəti çiyinlərdədir..
bu nicə dünyadir bu nicə dünya
ölüm hakikat hayati rüya
dərdimin gamimin ortagi səndin
niye yüz çevirdin ya niyə məndən?...
"derdin mənə gəlsin"hani diyərdin
niyə dərt əklədin dərdimə ya sən

ananam,kimsə səni dariltmamiştir,
mən səni
mən səni dariltan gədər
şimdi kimə açsam dərdimi bir bir
kim mənim dərdimə yanar sən gədər?
evin hər yerində görülür yerin
gözüm axtarcidir anna ey anna
"ninəm" hani"diyor küçük azərin
nə cəvap verəm ana ey ana
bilməm bilməm bilməm bu ölüm nədir
hayat var ikən
nəfəsin ey anam hala evdədir
özün yer altinda daşa dönmüssün

bugün yedin oldu...
annam yedi gün,

bizimlə bərabər ağlar odalar
sənə
yalniz sənə
sənə demək için
gönlümdə nə gədər bilsən sözüm var...

annəm ismarlandin anna topraga
bu ölüm sinəmə çəkti dağ mənim
sən mənim arxamda bənzərdin dağa
sanki də arxamdan uçtu daə mənim...

ömrü başa vurdun altmiş yaşinda
altmişin üstündə durup yaşinda
artix sənin için durudgu zaman
mənim çün dolaşir
gün olur axşam..
vakit geçər sən məndən uzaklaşirsin
mən sənə günbəgün yaxinlaşirim.....

## Ecdada Borcumuz
## Hadis

İmandan, gümandan, əsən küləktən
Bu millət bir nicə yerə bölündü.
Biri öbürünü iynələməktən
Sanki çevrilərək aqrəbə döndü.

Bu ona şər atar, o buna bühtan
Allah özi yetsin fəryadımıza
Bıkıp özümizi damgalamaktan
indi də geçmişiz əcdadımıza.

Iyiyi dışarda arıyoruz biz

**Fərqını bilmədən boşla dolunun**
**Savaş məydanından çəkilməğimiz**
**Adına yazılmış goç Köroğlu'nun:**
**"Yiğitlik on imiş, dokuzu kaçmak"**
**Bizim kimliğimiz bu imiş ancak?**

**Özüni küçültmək nərdəndir bizdə?**
**Nədir özümizə bu şər, bu bühtan?**
**Bizim aşağılık düşüncemizdə**
**"Öküz olmaz imiş ev danasından."**

**"O altın götürüp ülkədən" diyə**
**Bühtan da yamadık Rəsulzadə'yə.**
**Amma bir ayarı olur yalanın**
**Gəl dünü bu günə satma sən bu gün**
**Kəndi baştan başa gızıl olanın**
**Nəyinə gərkmiş altın, bir düşün.**

**Sən Allah, daş atma sən billur suya,**
**Gün gəlir, vicdanın gınar yar sına.**
**Amandır, goymayın garşı karşıya**
**Gəlin Nəriman'la Rəsulzadə'yi**

**"Bəbək soy köküylə bizdən değilmiş**
**Hatai İslam'i ikiyə bölmüş**
**Fətalı Allahsız, Vagıf baz idi**
**Falansa azıcık kumarbaz idi**
**Gəcəli gündüzlü Hadi dem idi**
**O ayyaş, bu fersiz, o bigam idi**
**Biri garazkârdı, biri hasisti**
**Bu ondan iyiydi, o bundan pisti**
**Nâtavan böyləydi Hacər şöyləydi**
**Böyükler önündə o, bir köləydi**

**Rahmet demiyoruz amma bir kərə**
**Milləti yücəltən rahmetlilərə**

Bir soran yox mudur pəki, sən nəsin?
Söylə, bu millətə nə getirmişsin?
Sən bühtan attığın bu büyüklərin
üzdə biri gədər nə iş görmüşsün?

“Divan şairleri” yaramaz bizə
Yoxtur uyarlığı zamanımıza
Fikrət’in oğlu da vazgeçti dindən
Gitti öz yurdundan, öz vatanından,
Hamit əsərləri batı taxlidi
Akif də, Fazıl da bir dindar idi”

“Doğudan Batıya fərman göndərən
Atalar ne gədər cephə yardılar
Batının önündə Fatihlərimiz
Bu gün yeni nesli utandırdılar.”

Özünü küçülten ey Türk, bir düşün
İncələ tarixi bir də dərindən.
Niçin utanmiıor batılı bu gün
Atasının xaçlı səfərlərindən?

Yadların önündə kekələməklə
Dədəni, nənəni lekələməklə
Niyə geçmişini sən tanıyorsun ?
Ulu şöhrətini kıskanıyorsun,

Sözün doğruysa da demə arkadaş
Birinə Turancı, birinə yoldaş
Öylə bilə olsa söyləmə kardaş
Birinə gasbikâr, birine ayyaş

O vakittən sular akmış durulmuş
Çox şeylər dəyişmiş, bu ki sır değil.
Farklı düşüncələr hər zaman olmuş
Yarın da olacak, zaman bir değil,

Zirvədən derəyi görmən ilə sən
Övünmə, bu dəyil uzax görənlik
Derədən zirvəyi gör, deyim əhsən!
İştə, buna derlər ərlik, ərənlik,
Bugünün gözüylə sən dünə baxsan
Geçmişə yargıda yanılacaksan,

Əvvəl özümüzü görək , anlayak
Bizə ağıl verip o ulu tanrı
Hiç görəbildik mi biz on yıl gabak
Bu gün gördügümüz bu oyunları?

Çox şey ummadık mı biz atalardan?
Bu günkü dertlərə biz yâdız məğər
Bizdən öncəkinə kulp tokmak asan ,
O kulptan kendimiz azadız meğer?

Neriman kim idi?: vaktinin oğlu!
O vakit düşünemezdi o bizim gibi
Sor öz vicdanından sanki bu yurdu
O senden, ya benden az mı severdi?

Gəlin ataları ata sayak biz
Ulu məzarlara daş atmayak biz
Zaman hükmeylədi, dünya dəyişti
Bizdən arkadaki iləri geçti
Dünya göz görəsi şər atar bizə
Biz də şər atarız öz dedəmizə
Ulu Atalara yol göstəririz
Harda ayrılsak da burda biz biriz.

Hakkı ayaklarız biz hak adına
Dil uzun, əl kisa, fikir dərbədər
Ya Rab! Bu dünyada öz əcdadına
Çirkef atan var mı bu millət gədər?

# Tora düştü kələyindən dünyanın

Baş açmadım ömrüm boyu mən yazık
Iblisindən, mələyindən dünyanın
Adəm sattı bir almaya cənnəti
Tora düştü kələyindən dünyanın

Nə güzəldir, ürək geniş, söz açık
Yaşamadım bir sevdamı yarımcık.
Azap adlı dəyirməndən narin çık
Geçəcəksin ələyindən dünyanın

Arzum için bir mələyən cüyürdüm
O təpədən bu təpəyə yüyürdüm
Niyə gorxum kəfənindən ? Ne gördüm
Beşigindən, bələyindən dünyanın

Biz özümüz özümüzdən öç aldık
Geçən günə gələn günü bac aldık
Ömrümüzün yarısında gocaldık
Silləsindən kötəgindən dünyanın

Gönül üzgün, hayal küskün dərbədər
Özün söyle zulm olur mu bu gədər?
Yədəkləyip arxasınca sürədər
Bərk yapışsan ətəqindən dünyanın.

Gönül düştü min arzunun izinə
Biləmədik əyrisi nə düzü nə?
Şimdi kəfən örüyoruz özünə
Öz küləndən, çiçəqindən dünyanın.

***AZƏRBAYCAN-TÜRKİYƏ***

*(Cavanşir Kuliyev musiki bestelemiştir)*

**Bir ananın iki oğlu,**
**Bir amalın iki kolu.**
**O da ulu, bu da ulu**
**Azərbaycan-Türkiyə.**

**Dinimiz bir, dilimiz bir,**
**Ayımız bir, ilimiz bir,**
**Eşgımız bir, yolumuz bir**
**Azərbaycan-Türkiyə.**

**Bir millətik, iki dövlət**
**Eyni arzu, eyni niyyət.**
**Hər ikisi cumhuriyət**
**Azərbaycan-Türkiyə.**

**Birdir bizim her halımız-**
**Sevincimiz-melalımız.**
**Bayraklarda hilalımız**
**Azerbaycan-Türkiye.**

**Ana yurdda-yuva kurdum,**
**Ata yurda könül verdim.**
**Ana yurdum, ata yurdum**
**Azerbaycan-Türkiye.**

## Yol İşarəti

**Sevdinsə ...**
**eşgındə itip yox oldun,**
**Karıştıracaksın günü , ayları.**
**Sevgi yollarında nə gaidə, ganun**
**özünü aşmalısın bu dolayları.**

Eriyip özünü yox sanacaksın
Bu dərdin olmayıp özgə çarəsi
Sən hız hız 'kazaya' uğrayacaksın
Yoxtur bu yollarda yol işarəti

## Şəhidlər

Gatil gölgəsində gurban gedərkən
Gözünü sabaha dtikdi şəhidlər
Üç rəngli bayrağı öz ganlarıla
Vətən göylarinə çəkdi şəhidlər
Zalim öyünməsin zölmümləinə
Min bir böhtanilə min bir şərilə
Həgigət yolundə ölümlərilə
Ölümü kamına çəkdi şəhidlər
O şənbə gəcəsi,o gətl günü
Mümkünə döndərdik çox na mümkünü
Xəlin gəlbində gorxu mülkünü
O gecə dağıdıb sökdi şəhidlər
Tarixi yaşadıg diləgimizdə
Bir yumuruğla döndük o gecə bizdə
Yıxıb küləkli  ürəgimizdə
Həyat mülkünü dikdi şəhidlər.
Onlar susdurulan həggi dindirər
Garca toprağı giymətləndirər
Donan vucudları ğeyrətləndirər
Axı el ğeyrəti ççəkdi şəhidlər
Bilirik bu bəla nə ilkidi nə son
Ölürkən uğrunda bu ana yurdun
Guzu cildində bu goca gurdun
Doğru düz şəkildə çəkdi çəhidlər.
Dözdü hər zilətə hər şeyə
“Dünyada mənim də həgim var”- deyə
Kütləni xalg edən mugaviləyə
Ganilə golunu şəkdi şəhidlər.

İnsan insan olur üz hünərilə
Millət millət olur xeyri şərilə
Torpağın bağrına cəsədlərilə
Azadlıg toxmunu əkdi şəhidlər

## Allahu-əkbər

Allaha ucalan ulu bir yolun
İlkin pilləsidir Allahu-Əkbər.
Haqqı dananların üzünə dəymiş,
Haqqın şilləsidir Allahu-Əkbər.

Göylərin nidası ucalıb yerdən.
Daim xilas edir xeyiri şərdən.
Qüdrəti-kamilin minarələrdən
Gələn nəğməsidir Allahu-Əkbər.

Məkana, zamana, dövrə o, soltan!
Odur həqiqətə qapılar açan.
Mömünlik yolunda qəlbə nur saçan-
İman şöləsidir Allahu-Əkbər.

Odundan əriyər sinə dağları,
İşığa bürüyər qaranlıqları.
Donmuş ümidləri, batmış haqları
Bir anda isidər Allahu-Əkbər.

Dünyanın əzəli borcludur ona,
O bir pəncərədir əvvəldən sona.
Görünməz dünyanın var olduğuna
İman müjdəsidir Allahu-Əkbər.

Odur əyriliyə düzün həmləsi-
Rəhmin ilk nidası, axır cümləsi!
Allahın səsidir vicdanın səsi,

**Vicdanın səsidir Allahu-Əkbər.**

# ALUŞTADA ƏMƏTXAN SULTANIN HEYKƏLİ ÖNÜNDƏ

**Əmət Sultan,**
**De, hardadır indi sənin ana yurdun?**
**Sən cəbhədə Rusiyanı qoruyurdun.**
**Həmin ölkə Vətənindən sürgün etdi millətini.**
**Tapdaladı namusunu, qeyrətini.**
**O, üzünə gülə-gülə**
**Yaxşılığın əvəzini çıxdı belə**
**Eşitmişəm, bu təhqirdən**
**Sinən olmuş oyuq-oyuq**
**Sənin ana torpağından özünə yox,**
**Təkcə sənin heykəlinə yer verdilər.**
**Sənə sənin qan bahanı göstərdilər.**
**Dəyərinə diqqət elə,**
**Alçaldılan şərəf, şanın!**
**Vətənində ucaltdılar**
**heykəlini qəhrəmanın.**
**Dedilər: biz sevirik Əmətxanı.**
**Demədilər: bu igidi yetişdirən millət hanı?**
**O, göydənmi düşdü yerə?**
**Atası kim, anası kim? Milləti nə?**
**O igidin məhəbbəti yox idimi**
**Vətənindən qovduğunuz millətinə?**
**Döşünə cüt ulduz taxıb dedilər ki:**
**“Öz millətin sənə yaddır.**
**Atan da, ana da biz.**
**Dedilər ki, sən yaxşısan,**
**Atan da pis, anan da pis...”**

**Heykələ bax!**
**Qəzəb yağır baxışından.**
**Sən dostunla düşmənini**
**Seçəmmədin, ey Əmətxan!**
**Sən qəzəblə nə baxırsan Qərbə sarı?**
**Döndər, döndər sən Şimala**
**O qəzəbli baxışları.**
**Qərbdə deyil, qardaş, sənin**
**Şəmaldadır öz düşmənin!**
**O düşmən ki, torpağına sahib olub**
**Səni dandı.**
**“Ay dağ”*da ayılandı.**
**Necə deyim “qəhrəmansan“**
**mən də sənə-**
**Dostu ilə düşmənini seçməyənə?**
**Sənin iti nəzərin var.**
**Yaxşı vuran,**
**Ancaq niyə vurduğunu**
**Düşünməyən bir ovçuya bənzərin var.**
**Atəşinə öz ürəyin hədəf oldu,**
**Şərəfsizlik indi dönüb şərəf oldu.**
**Heykələ bax! Dayanıbdır əzəmətlə,**
**Ləyaqətlə.**
**Millətinin şərəfini**
**Qoruyan bir igid kimi.**
**Döşündəki o ulduzlar**
**Əldən çıxan o torpağın əvəzimi?**
**Əmət Sultan,**
**Sənə haram elədilər halalını.**
**Sən tutuşdur heykəldəki qürurunla**
**Həyatdakı bu halını.**
**Vallah, billah, yaraşmayır bu qürur sənə,**
**Qanan hər kəs gülür sənə!**
**Kimdir sənin o dünənki qürurunu**
**Bir quruşa bu gün alan.**
**... Ey Vətəndə daşa dönüb yalqız qalan!**

Sən döyüşdün
Düşməninin düşməniylə nahaq yerə.
Döşündəki nişanlardan
Bu gün gərək Vətən boyda
Dərd göyərə, qəm göyərə!

# BƏLKƏ AYILDIM

*Zori Balayanın "Ocağ"ına cavab*

Gah Şərqə, gah Qərbə qol-budaq atdıq,
Biz tarix yazmadıq, tarix yaratdıq.
Sizsə özünüzə hey zaman-zaman
Tarix uydurdunuz şərdən, yalandan.
Gerçəyin üzünə boya sürtdünüz,
Böhtanı doğru tək gözə dürtdünüz.

Utanmaz üzünlə, Balayan, utan
"Bala"dan yaranmış öz soyadından.
Nədir Ələkçiyan, Dəmirçiyanlar?
Ələyə, dəmirə sən nə deyirsən?
Türkü bəyənməyib sən açıq-aşkar
Türkün sərvətini mənimsəyirsən?

Nə tez cığırandan çıxıb qudurdun,
Dünənki ağanın üzünə durdun.
Rusun hiyləsiylə köçüb İrandan
Bizə sığınmaqçın, maska geydiniz.
Pənah xan Şuşanı tikdirən zaman
Çaydan daş daşıyan qulbeçəydiniz.
Vaxt keçdi, girdiniz başqa bir dona,
Düşdünüz ağalıq iddiasına.
Guya bu torpağın qəsbkarı biz,
Əsl sahibkarı yalnız sizsiniz.
Tarixin dərsləri unudulammaz,

Dünənki nökərdən ağa olammaz.
Saxta dəlillərlə yanan bu “ocaq”
Nifrət çöpləriylə qalanıb ancaq.
Geydin astarını sən həqiqətin,
Hər kəlmən uydurma, hər sözun qərəz.
Türkə bəslədiyin kinin, nifrətin
Siqləti çəkiyə, ölçüyə gəlməz.
Dşümən kəsildiniz haqqa, gerçəyə
Əslində olmayan “soyqırım” deyə.
Bürüdü dünyanı hay-harayınız.
Quyruq bulamaqda yoxdur tayınız.
Sənin tarixinin dolanbac yolu
Yalanla, böhtanla, şərlə dopdolu.
Allah elə bil ki, yaradıb səni
Bizim başımıza bəla, erməni !

Həmişə oyaqsan...
sən bu gününə,
Mənsə keçmişimə uydum, bayıldım.
Uydur yalanları, uydur sən yenə
Bəlkə qəflətimdən bir gün ayıldım.
Mən öz keçmişimlə xumaram hələ,
Balayan, sən Allah, məni iynələ.
Elə iynələ ki. göynəyən ağrı
Mənə çoxdan çatıb, hamıya çatsın.
Düşünüb sabahı deyirəm, barı
Rəhbərim oyanıb xalqı oyatsın.

## HÖRÜMÇƏK TOR BAĞLADI

Tariximiz danıldı,
Uydurma tarix ilə kimliyimiz anıldı-
Öz kökünü bilməyən gözü küllü bu millət
Zamanın yollarında hər addımda yanıldıö
Uydurma tarix bizi anamızdan ayırıb,

**Yad anadan alınmış bələkdə qundaqladı.**
**Özülümüz laxladı.**
**Bu xalqın tarixini düz bildirən, düz yazan**
**Tarix kitablarında hörümçək tor bağladı.**
**Kimə deyək dərdini bu dövranın, bu günün?**
**Vəzifəyə sümsənən,**
**Vəzifə kürsüsünün**
**Birinci pilləsində bu mərkəzdən noxtalandı.**
**Kişiliyi vardısa, bu anda axtalandı…**
**Ürəkdəki cəsarət,**
**mərdanəlik,**
**dəyanət**
**talandı,**
**tapdalandı.**
**Məğrur keçmişimizdən üzüldü əllərimiz,**
**Şərəf bildik özgəyə qul olmağı yoxsa biz?**
**Hər cürə zülmü udduq.**
**Köləliyi qazanıb, kişiliyi unutduq.**
**Vicdan, düzlük, həqiqət sürgün oldu bu yerdən,**
**Yaltaqlıq və xəyanət silahını yağladı.**
**Cəsarət qılıncının ağzı düşdü kəsərdən,**
**Qəbzəsində, qınında hörümçək tor bağladı.**

**Dilimiz yasaq oldu.**
**Ruhumuz qəlbimizdə əbədi dustaq oldu.**
**Ruhsuz yaşadıqca biz**
**Vicdanımız, eşqimiz**
**üzümüzə ağ oldu.**
**Biz beləcə yaşadıq, yaşamadıq, süründük,**
**Əməlimizdə deyil, sözümüzdə göründük.**
**Ruhumuz qan ağladı,**
**Məscid qapılarında hörümçək tor bağladı.**

**Həqiqət dilə gəldi,**
**Dildə ilişdi, qaldı.**
**Həqiqətin üstünə yalanlar kölgə saldı.**

Vuruşmadıq, barışdıq
Biz "azadlıq" adlanın bir uydurma nağılla.
Ölən düşüncələrlə qəlbimiz yas saxladı,
Həqiqəti deməkdən elə qorxduq…
Ağılla
Həqiqət arasında hörümçək tor bağladı.

## KİROVUN HEYKƏLİ

*Kamil Mirbağırova ithaf*

O, heykəlmi?
Yox, ey dost!..
O, ölkənin sahibi.
Başımızın üstündə
Sıyrılıb qılınc kimi.
Hədələyir o, bizi.
Deyir mənimdir ölkə-
Bu göy,
bu yer,
bu dəniz!
Başınızı vuraram,
Ayaqlarım altından
Başınızı çəksəniz!
Ayağım altındadır
Namusunuz,
arınız.
Başınızı sürüsun
Daim ayaqlarınız.
-Bu düzdür!
Bəs neyləmək,
Susub oturmaqmı?..
-Yox!
Biz nə qədər yaşayaq
Başımız üstündə yumruq?..

Öz doğma şəhərində
Sən kimin heykəlini
İstəyirdin ucala
O heykəlin yerində?
- Koroğlunun,
- Babəkin.
- Yox, dostum yox, bilmədin!
Mən istərəm tarixə
Bu gündən də iz qala,
O heykəlin yerində
O heykəli yıxanın
Tunc heykəli ucala...

## QORXU

Mən qorxuram, sən qorxursan,
O da qorxur, bu da qorxur,

Biz qorxuruq.
Təzə fikir beynimizə gələn kimi
tez qorxuruq.
Başqasından qorxduğumuz bəs deyilmiş,
Özümüzdən biz qorxuruq!
Qorxu, qorxu!
Bir qurd olub yeyir bizi içimizdən,
Nə gözləyir Vətən bizdən?
İradə yox,
kişilik yox.
Biz qorxuruq,
biz susuruq.
Fikir ölür,
can sustalır,
ürək dönüb,
ruh boğulur.
Qorxu bizim dilimizdə kilid olur,

Beynimizdə qıfıl olur.
Dərd budur ki, bu dərdi də
Biz qanırıq, biz bilirik.
Qorxa-qorxa
Özümüz də özümüz üçün
Biz qorxuya çevrilirik.

## MƏNIM SƏBRİM

Mənim səbrim.
Bu səbrimə mən nə deyim?
Mənim səbrim-mütiliyim,
köləliyim !
Atam kölə olduğunu heç bilmədi,
"Ağa" kimi ömür sürdü.
Yaşayırdı,
düşünmürdü.
Mənsə kölə olduğumu
Qana-qana, bilə-bilə
yaşayıram.
Öz-özümü dana-dana,
ölə-ölə
yaşayıram !
Xöşbəxtliyim ondadır ki,
Düşmənimin hökmü böyük,
taxtı çürük!
Bədbəxtliyim ondadır ki,
Mənim səbrim
Düşmənimin qüdrətindən daha böyük !

## MÜSAVAT

Zülmətlə savaşlarda zəfər çaldığı gündən,

Qəlblərdə azadlıq odu yandırdı Müsavat.
Ulduz və hilal eylə ki, üç rəngə qovuşdu,
Boz qurdu könüllərdə oyandırdı Müsavat.

Meydan oxudu qan çiləyən dövrana qarşı,
Hər zalimə, hər nadana, hər hədyana qarşı.
Tüğyan elədi eyləki zülm insana qarşı,
Öz həddini zalimlərə qandırdı Müsavat.

İlhamını almış o, Vətən adlı gözəldən,
İman suyunu, çünki o içmişdi düz əldən.
Xalq namina haqq naminə vuruşlarda əzəldən
Ön cərgədə hər tilsimi sındırdı Müsavat.

Öndər dedi: - İstiqbal üçün dağ aşalım biz,
İstiqlala, istiqbala daim qoşalım biz,
Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz
Amalına bu xalqı inandırdı Müsavat.

Amalı təmiz, məqsədi aydın, üzü ağdır,
Ən ali məqamlarda qərəzlərdən uzaqdır.
Tarix şüuru-xalqımı millət yapacaqdır,
Haqqa dönəni haqqa tapındırdı Müsavat.

Düzlük şüarı daima çarpışdı yalanla,
Torpaqdan alıb qüdrəti, kökləndi zamanla.
Cənnət edəcək amala dönmüş bir imanla
Ünvanı Azərbaycan olan yurdu Müsavat.

## PAMBIQ

Adına min lənət, özün bir yana,
Gəlmişik əlindən zinhara, pambıq.
Rəngin ağdırsa da yazıq kəndlinin
Elədin gününü sən qara, pambıq.

Havaya sovrulur əlimin rənci,
Qocaya döndərdin cahılı, gənci.
Yazı əkinçiyik, qışı dilənçi,
Düşmüşük əlindən azara, pambıq.

Sən mənim xalqıma kəsildin qənim,
Çox da ki, bahadır qiymətin sənin.
Millət lüt-üryandır,
amma özgənin
Əynində dönürsən paltara, pambıq.

Anamın, bacımın yeyib ətini,
Gözündə qoyursan hər niyyətini.
Çəkirsən kəndlinin heysiyyətini,
Hərrac malı kimi bazara, pambıq.

Hər zülmə, cəfaya sinə gərmişik,
Xeyiri, qazancı yelə vermişik.
Səni biz əkmişik, biz becərmişik,
Yüklənib gedirsən bəs hara, pambıq?

## TARİX

Bizi ayırdılar mənliyimizdən,
Millət kökdən qopan bir budaq oldu.
Süzüldü yad səsi öz neyimizdən,
Keçmişin üzünə indi ağ oldu.

Hələ unuduldu Quran da, din də,
Keçib gəldiyimiz yollar danıldı.
Əridik özgələr, yadlar içində,
Hünərli, zəfərli illər danıldı.

Tarixdir hər daşın, qayanın yaşı,

Tarixlə bağlıdır insan, yurduna.
Yox isə bir xalqın tarix yaddaşı,
Vətən də quruca torpaqdır ona.

## YADA ABİDƏLƏR UCALDIB DEDİK..

...Yada abidələr ucaldıb dedik:
Fəhləlik bizimdir, ustalıq sənin.
Çox zaman özgəyə qulluq elədik
Beyin bizim oldu, əsər özgənin.

Nadir də, Qacar da ölkələr aldı,
Vətən ucalmadı, özü ucaldı,
Öz doğma yurdunu ayağa saldı,
Şahlar bizim oldu, zəfər özgənin.

Saldıq özümüzü özümüz gözdən,
Kül ilə oynadıq əl çəkib közdən.
Ölkələr nur aldı şəfəqimizdən,
Günəş bizim oldu, səhər özgənin.

Mənim sərvətimə cahan göz dikdi,
Sərvətim, dövlətim ona gərəkdi.
Babam yer şumladı, babam yer əkdi,
Əmək bizim oldu, bəhər özgənin.

Açdı sinəsini bizə bu torpaq,
Aləmi bəzəyib lüt olduq ancaq.
Cıdırda çapsaq da hamıdan qabaq,
Hünər bizim oldu, nəmər özgənin,
Qızıl bizim oldu, kəmər özgənin.

## SANDIQDAN SƏSLƏR

Tapdamaq olarmı haqqı bu qədər?
Yüz əlli ildir ki, soyurlar bizi.
Bu heç,
Bizə bayram elətdirirlər
Tarixdə ən böyük faciəmizi.
Vətən əldən gedib... Buna yanmıram.
Ağır bir qədərlə üzbəüz olduq.
Ona yanıram ki, o gün, bu bədnam
Alverin dəllalı özümüz olduq.

## ALLAH

İdrakda yol açmış gecədən gündüzə Allah,
Güldürməsən öz könlünü, gülməz üzə Allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmasa, görünməz gözə Allah.

Allah! Bilirik cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et bu, təəccübdə, bu heyrətdədir Allah.

Bildik, bilirik, gizlidir insadakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hörmət,
İnsanlığa hörmətdə, ləyaqətdədir Allah.

Gerçək də budur: gizlidir hər zərrədə vəhdət.
Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət.
Gördüklərimiz zahirdir, bətnə nüfuz et!
Bətndəki, cövhərdəki fitrətdədir Allah.

Fitrət də yatır sözdə, sözün öz yükü fikrim.
Seçmiş, seçəcək daima tükdən tükü fikrim.
Mən bir ağacam, yarpağı sözlər, kökü fikrim,
Sözlərdə deyil, sözdəki hikmətdədir Allah.

İnsan! Təpədən dırnağa sən arzu, diləksən,
Nəfsində duyumsuz, fəqət eşqində mələksən.
Zülmün üzünə haqq deyilən şilləni çəksən,
Şilləndə möhürlənmiş o qeyrətdədir Allah.

Cahil enər alçaqlığa, öz qəlbinə yenməz,
Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.
Zülmətdə, cəhalətdə, ədavətdə o görünməz,
İlqarda, sədaqətdə, məhəbbətdədir Allah.

## BABASI KIMI

Mənim bir gözəl
Körpə nəvəm var.
O da Bəxtiyar,
Mən də Bəxtiyar.

Biz baba-nəvə
Adaşıq, adaş.
O, mənə vüqar,
Mən ona sirdaş.

Mən bir ağacam,
Nəvəm qol-budaq.
Mən onun kökü,
O,məndə yarpaq.

Xalqa vuruldum
Mən şair oldum,
Bilmirəm ancaq
O nə olacaq?

Nə olur olsun,

Kim olur olsun,
Babası kimi
Xalqa vurulsun.

## BIR QƏRIBƏ YUXU GÖRDUM...

Ömür yolum- içimdəki vuruşlarım.
Mübarizəm-talem ilə yarışlarım.
Qədərimin yazıları-alnımdakı qırışlarım.
Kaş onları pozan ola!
Təzəsini istəyimcə yazan ola!

Tutuşmuşam, çaxmaq yoxdur alışmağa,
Qaynayıram, təpərim yox, nə coşmağa, nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmağa
Dədə Qorqud timsalında ozan ola,
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola!

## ETİQAD-İNAM

Şübhədən inama yol tutmuşam mən,
Özümü özümdə unutmuşam mən.
Bilmirəm özümdə mən kiməm, nəyəm?
Özümə bir qulam, hakiməm, nəyəm?

Bəzən pislə yaxşı, uzaqla yaxın
qarışır,
Gözümdə dəyişir aləm.
Mələklə şeytanın, haqla nahaqqın
Savaş meydanına çevrilir sinəm.
İnamın önündə şübhəm baş əyir
İnama inamla getdiyim zaman.
Amma möcüzələr girə bilməyir

Ağlaman taybatay qapılarından.
Günəş sirr,
Ay da sirr,
Ulduzlar da sirr.
Nə vaxt açılacaq bu sirr düyünü?
Ağlın kiçikliyi qavraya bilmir
Xaliqin ölçüsüz böyüklüyünü.

Onda etiqadı dərhəl arxa cərgədən
Dərhal köməyimə çağırıram mən.
Beləcə gedirəm inama doğru.
Bilmirəm, inama gedən yolmu bu?

Suallar beynimi deşir günbəgün,
Özümə ən böyük sirrəm özüm də.
Qeyri-adiliklər bəlkə bununçün
Dönür möcüzəyə mənim gözümdə?

Elə yol gedirəm, yol uzun, yoxuş,
Son ucu görünmür gözə mənzilin
Çatdığım hər mənzil başlanğıcıymış
Getmək istədiyim təzə mənzilin.

## ƏZAN SƏSLƏRİ

-Bu dağı, bu daşı min ildən bəri
Vətənə çevirdi əzan səsləri
Nə imiş görəsən, nə deyir o səs?
Göylərə tuşlanan o qaib nəfəs?
Nədir o səsdəki əzəmət, kədər-
Genişlik, sonsuzluq, ənginlik qədər?
- Yerləri göylərə bağlayan dirək,
Göyləri yerlərə endirən dilək!

## GERÇƏK GÜNAHKARDIR

Qəribə əyyamdır, üz astar olmuş,
Bazarda satan çox, amma alan yox.
Mənim ürəyimdə indi yel vurub,
Yengələr oynayır, çəpik çalan yox.

Azadlıq qollarda bir kəmənd olub,
İndi qarğalar da gülə bənd olub,
Fələyin gərdişi tərs-avand olub,
Gerçək günahkardır, amma yalan yox.

Maşallah, çıxmışıq göyün seyrinə,
Bilən yox bu işin şəri, xeyrinə.
Qılan səcdə qılır tək öz xeyrinə
Haqqa səcdə ilə namaz qılan yox.

Bir ovuc torpaqdır hamının sonu,
Sağ ikən bir kimsə düsünmür bunu.
Hamımız acgözük, Allah xofunu
Qəlbinə, ruhuna, vallah, salan yox.

Ölülər diridir, dirilər ölü,
İstidir dünyanın odundan külü.
Doğru danışanın kəsilir dili
Öldürən haqlıdır, indi ölən yox.

## AĞIL BAŞQA, ÜRƏK BAŞQA

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.

Ətri də xoş, rəngi də xoş
Gül başqadır, çiçək başqa.
Hər diki yoxuş bilmə, gəl,
Hər meyi meyxoş bilmə, gəl.
Hər uçanı quş bilmə, gəl
Quş başqadır, böcək başqa.

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm,
Sən çəkənsən, mən gələnəm
Oəmi başqa, yedək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur,
Xeyirlə şər sağ - solumdur
Şeytan başqa, mələk başqa.

Bir diləyə mən calandım,
Gah qazandım, gah talandım,
Ömrüm boyu haçalandım
Ağıl başqa, ürək başqa.

Dilək oldu mənim adım,
Pərvazlandı qol-qanadım,
□atmadı səbrim, inadım
Əməl başqa, dilək başqa.

## ALLAHDAN QANAD İSTƏDİM
### *(son variant)*

Allahdan qanad istədim,
Allah mənə xəyal verdi.
Bu qanadlı xəyal mənə

Yaşamağa macal verdi.

Allahdan fərəh istədim,
Allah mənə kədər verdi.
Bu kədərim, qədərimə
Tamam başqa qədər verdi.

Allahdan ağıl istədim,
Allah mənə ürək verdi.
Bu ürək mənim ömrümə
Qəm üstündən qəm gətirdi.

Allahdan dözüm istədim,
Allah mənə qəzəb verdi.
Mən Allahdan rəhm istədim,
Mənə bollu əzab verdi.

Mən Allahdan haqq istədim,
Zülmünü gen-bol eylədi.
Əzabların kotanına
O, sinəmi yol eylədi.

*1998-1999*

## AXI, DÜNYA FIRLANIR

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb-daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı, dünya fırlanır.

**Dünən düz sandığımı bu gün əyri sanıram.**
**Bəzən olur, özümdən özüm oğurlanıram.**
**Hər il başqa arzunun başına fırlanıram,**
**Niyə də fırlanmayım, axı, dünya fırlanır...**

**Çox əyilən görmüşəm, əyilməyən başları.**
**Sular duruldu, gördük dibindəki daşları**
**Ünvanmı dəyişdi dünənin alqışları;**
**Niyə də dəyişməsin, axı, dünya fırlanır...**

**Necə dönür bu dövran, necə dönür bu gərdiş,**
**Tazılarm üstünə dovşanlar da gülərmiş.**
**Dünya bina olandan hər şey dəyişilərmiş,**
**Dəyişməsin neyləsin, axı, dünya fırlanır.**

**əbədini dünyada mən əbədi sanmadım,**
**Bir atəşə tutuşdum, min atəşə yanmadım,**
**Bütlər gəldi və getdi, birinə inanmadım**
**Niyə inanmalıyam, axı, dünya fırlanır.**

**Fırlandıqca bu dünya, yox da dönüb var olur,**
**Quruyan çeşmələrdən sular yenə car olur.**
**Bu dünyanm xeyri də, şəri də təkrar olur,**
**Niyə təkrar olmasın? Axı, dünya fırlanır.**

**Min-min illər bu dünya beləcə fırlansa da,**
**Bir yuvanın bülbülü min budağa qonsa da,**
**Aylar, illər, fəsillər bir-birini dansa da,**
**Dəyişməzdir əqidəm, çox da dünya fırlanır,**

**Nə qədər istəyirsə, min o qədər fırlana,**
**Qarşıma gah şər çıxa, gah xeyir dığırlana.**
**Çərxi-fələk istəyir lap dolana tərsinə,**
**əqidəmi heç nəyə dəyişmərəm mən yenə.**

## QORXU

Mənim sol əlimdə yanıq yeri var,
O mənə töhfədir körpəliyimdən.
Odun odluğundan xəbərsiz vaxtlar
əlimi manqalda yandırmışam mən.

Mənə "cız" dedilər,
Ancaq qorxmadım.
əlimi yandırıb tanıdım odu.
Mənim həyat ilə ilk tanışlığım
əlimi yandıran oddan başladı...

Oxşadı gözümü hələ uşaqkən
Ocağın al-əlvan alovu, közü
Dünyaya gələli, bilmirəm nədən
Nəyə vurulduqsa, yandırdı bizi...

Mən oddan qorxmadım yanana qədər;
Mən qorxu bilmədim qanana qədər.
Elə ki, yandım,
Odla oynamaqdan qorxdum, dayandım.
Başlandı qorxu-
Başlandı ehtiyat-
Başlandı həyat...

## GÜMAN QALIB ALLAHA

Talan olmuş bir zaman ürəklərdə bəslənən,
Ümid ilə süslənən
O arzular, o kamlar.
Körpülərin üstündən indi sel sular keçir,
Altındansa, adamlar.

İndi yalan and olub
Hər şey tərs-avand olub.
Yayın oğlan çağında
Buludlar yaman dolub.

Hamı düz yoldan qaçıb, əyri yola işləyir
Saatın əqrəbləri soldan sağa işləmir,
Sağdan sola işləyir.
Bu qaranlıq gecənin hələ sonu görünmür
Səhər dönür axşama, gecə səhərə dönmür.
Gündüzləri alışıb, gecələri sönmüşük
Biz ağılla hiss edib, ürəklə düşünmüşük.
Özümüzə qayıdır atdığımız oxumuz
"Toxam" - deyir acımız, "acam" - deyir toxumuz.
Alçalmağı heç kəsin toxunmur vüqarına
Qol götürüb oynayır bu millət ac qarına.
Bir-birinə uyuşmur sozümüzlə içimiz
Toyda ağı söyləyib, yasda gülüsürük biz.
"Xoşbəxtəm" deyənlərə dilənçi qaçqınımız
Çadırından hay verir.
Ona bu "xoşbəxtliyi" bəxş eləyən kəslərə
Öz ömründən pay verir.
Nə gerimiz bəllidir, nə irəlimiz bizim
Əlirnizin yerinə işləyir səhər, axşam
Yalnız dilimiz bizim.
Nə arxada, nə öndə məlum bir yerimiz yox
Hara getdiyimizdən vallah, xəbərimiz yox.

Biz bir şeyi bilmədik:
Hər əsrin öz damarı, hər günün öz rüzgarı!
Bu günün qıfılına düşə bilməz, dünənin
Pas bağlamış açarı.
Ürək qalıb o tayda, güman qalıb bu tayda
Bir işıq istəyirik iynənin ucu boyda.
Ümidə də güman yox, ümid gümandan baha
Üzlər göyə tikilmiş, güman qalıb Allaha.

## YUXULUYAM, YUXULU

Boşalıram, dolmuram
Çaşdırmışam sağ-solu.
Axtarıram bulmuram Allaha gedən yolu.
Necə çatım mən ona?
Şeytan girir min dona.
Dag atır haqq yoluna
Azır Allahın qulu.

Özüm özümə qənim
İçimdədir düşmənim.
Yolumu kəsmiş mənim
Bağ çəpəri, dağ kolu.

Hər bütə ram olmuram,
Dönüb səcdə qılmıram.
Daş dəyir, ayılmıram
Yuxuluyam, yuxulu.

## BAYRAQ

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş
Göytürkdən qalan
Qurdbaşlı  bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq-öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başma tac olan hilal.

Daim ucalasan! Savas günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

## QƏRİBƏ DEYİLMİ?

Qəribə dünyadır, bəzən baş yarır
Ayağın dəstəyi taxta çəliklər.
Bəzən qul sahibi qula yalvarır
Dünyanı fırladır qəribəliklər.
- Dünya çalxalanır yenə dəniz tək.
- Bu böyük dünyanın dərdini çəkmək
Bizəmi qalıbdır?
- Vallah, nə deyim?
Sənə yox, mənəsə qalıb, neyləyim?

Qəribə deyilmi?
Sən sirr, mən də sirr.
Bu sirri bilmirik necə çözməli?
Kimi övladının dərdini çəkmir,
Kimi də xalqının dərdindən dəli!
Torpaq əldən getdi, ölkə talandı,

Sənin nə vecinə, günün ağ olsun.
Səninçün dünyada hər şey yalandı
Təki damağın çağ, canın sağ olsun.
Bu boyda millətin ağır günündə
Qaşını çatmaq da sənə əzabdır.
Qardaşın döyülsə gözün önündə
Deyərsən, nə hay-küy, nə şaphaşapdır?

Ayıra bilirsən xeyirdən şəri,
Mənfəət meydanı səninçin gendir.
Nə Vətən, nə millət?
Səndən ötəri
Harda xeyrin varsa, ora vətəndir.
Xalqın naləsinə qulaqların kar,
Millətin içində millətə yadsan.
Dərddən başımıza yağdı yağışlar,
Səni islatmadı, dərddən azadsan.
Bir qırıq dəymədi xeyrin özgəyə
Quru ağacdan da meyvə dərmisən.
Xeyrinin gözüylə baxdın hər şeyə
Dünyanı cibinə yerləşdirmisən.
Qışın çovğunu da sənə yaz gəlir
Əgər mənfəətin var isə bundan.
Xeyrindən özgə şey sənə vız gəlir
Araz açığından, Kür topuğundan.
Heç demə, dünyada dünyada kənar
Zamanın çölündə yaşayan da var...

## NÖQSANDAN DA BETƏRMİŞ

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim, hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə vəkilin
Gecə-gündüz çəkişməsi hədərmiş.

**Çox düşündüm: nədir qəsdim, niyyətim?**
**Hara çəkir görən məni fıtrətim?**
**Bu dünyadan mənim payım, qismətim**
**Sevincimdən oğurlanan kədərmiş.**

**Mən baxmadım nə yada, nə həmdəmə,**
**Nöqsanımı faş elədim aləmə.**
**Hey danladım öz-özümü... heç demə,**
**Mərdliyim də etirafa qədərmiş...**

**Vicdanımdan sordum: nədir etiraf?**
**Cavab verdi: bir tövbədir etiraf.**
**İndi bildim, əməlsiz bir etiraf**
**Günah kimi nöqsandan da betərmis**

## MƏNDƏN XƏBƏRSİZ

**Ömrün fəsilləri tez başa gəldi**
**Yayı bəhərlidir, qışı bəhərsiz.**
**Bir vaxt ayıldım ki, heydən düşmüşəm**
**İllər öz atını çapdı yəhərsiz.**

**Amal olan yerə baş qoyan illər**
**Toran gözlərimə yaş qoyan illər**
**Ey yaşım üstünə yaş qoyan illər,**
**Hara qaçırsınız məndən xəbərsiz?**

**Ey ömür! Görünür artıq sahilin**
**Əlin qısaldıqca uzanar dilin.**
**Ömurdən verdiyim yetmiş üç ilin**
**Zəhəri yetərli, balı yetərsiz.**

**Öz çiyin yüküdür hər kəsin yaşı**
**Dərdi-sirdasıdır, fıkri-yoldaşı**
**Dönüb xislətimə qəhər, göz yaşı.**

Sevinc də, kədər də ötmür qəhərsiz.

Fikirlər selində axandan bəri
Ayıra bildimmi xeyirdən şəri?
Tökülmüş ömrümün yarpaq illəri
Bağçası viranə, bağı çəpərsiz.

Könlil o könüldür qoca yaşımda
Fikirlər qaynaşır yenə başımda
Yenə hücumdayam söz savaşmda
Sözüm təpərlidir, özüm təpərsiz.

## YAZIQ VƏTƏN

Bir ananın övladıyıq biz hamımız
Bizi biri-birimizdən ayrı saldı
Məqsədimiz, məramımız.
Beynimizdə tağ atınca
Fikirlərin neçə rəngli göy qurşağı
Meydan açdı cəbhələrin solu, sağı.
Kölgələndi, üstələndi
Qan birliyi, can birliyi,
din birliyi.

Cilalandı
fikir,
şüur,
yön birliyi.
Hardan çıxdı qarşımıza qara pişik?
Bu gün biri-birimizə
Qatı düşmən kəsilmişik.
Bu gün vahid anamızı
hərə çəkir bir tərəfə.
Kinimizi, eşqimizi
tuşlamırıq bir hədəfə.

**Olan olub, torba dolub**
**Əsl düşmən unudulub.**
**Amma biri-birimizlə didişirik.**
**Söküb köhnə palan içi, gor eşirik.**

**Ömrüm boyu istəmişəm**
**fikirlərin min rəngini-**
**Duyğuların çələngini.**
**Amma bu gün düşünürəm:**
**Bu fikirlər toqquşması**
**Vətənimin xeyrinəmi?**
**Yox! Savaşlar qarşısına**
**Sipər etmək istəyirəm öz sinəmi!**
**Bizim biri-birimizə kinimizdən**
**Bulanıbdır dağlardakı sərçeşmələr.**
**Anlamıram bu məqamda**
**Gərəkmidir bir bu qədər çəkişmələr?**
**Sən də övlad, mən də övlad,**
**Sən də insan, mən də insan**
**Doğulmuşuq bir anadan,**
**Qanda birik, canda birik**
**Anaraızın xatirinə**
**Bəs niyə biz bir məxrəcə gələmmirik?**

**Atam oğlu, niyə qardaş bağındakı**
**Gülü deyil, kolu gördün?**
**Öz gözündə tiri deyil,**
**Qardaşının gözündəki qılı gördün?**
**İş gücümüz didişməkmi?**
**Leş üstündə didişərlər... Vətən leşmi?**
**Bölünməmiş nəyimiz var? O Vətəndir!**
**O, həm səndir, o həm məndir.**
**Necə bölək məni, səni?**
**Necə bölək bu Vətəni?**
**Yarı mənim, yarı sənin?**
**O, meyvəli bir ağacdır**

Adı mənim, barı sənin?

Razısanmı bu bölgüyə?
Razısansa, gəl, barışaq.
Qarğa kimi leş üstünə gəl, darışaq.
Utanıram bu sözümdən
Əfv et məni,
yazıq Vətən, yazıq Vətən!
Fəryad çəkən bu ananı düşünən yox!
Öz dərdinin atəşinə
Qalananı düşünən yox!
Hər ikisi "mənəm" - deyir
İqtidara yetişməkdən
Ayrı bir şey düşünməyir-
Coşan qəlblər, qızan başlar.
Hakimiyyət davasıdır bu savaşlar.
Vətənçin gün ağlamayır
Nə o tərəf, nə bu tərəf.
Bu Vətəni
Dədəsindən ona qalan əmlak sayır
Həm o tərəf, həm bu tərəf.
Hər biri öz peşəsində
Namus ilə çalışanlar
Bu Vətənin dərdi ilə alışanlar
İkisinin arasında
Qalıb ancaq yana-yana
Müfxalifdir həm o yana, həm bu yana.

## İNTİHAR

Səndən çörək uman körpələrinin
Üzünə baxmaqdan utandın yəqin.
Sən atıb özünü beşinci qatdan
Keçdin xəcalətlə keçən həyatdan.

Körpə balalara düsündünmü sən
Kim arxa duracaq sənin yerinə?
Özü də yetimkən bu badbəxt Vətən
Sahib çıxacaqmı körpələrinə?

Yazdım əlim yandı, yazmadım dilim,
İndi ən baha şey namus, ar imis.
Amma bu ölkədə ən ucuz ölüm
Həyata tüpürən intihar imiş.

Ölən ölümünü ölümdən görür
Bu həyat işgəncə, bu həyat zülüm.
Xalqın sinəsində zaman xıs sürür.
İndi adamları öldürmür ölüm
İndi adamları həyat öldürür.

## QÜRBƏT-VƏTƏN

Anamız birdirsə Vətən də birdir
Nə ana, nə Vətən iki olammaz.
Qürbətdə tapdığın xeyir də şərdir
Qəlbin bu xeyirdən isıqlanammaz.

Qürbətin xeyrinə ay aldanan kəs,
Vətənin şərinə kim ortaq olsun?
Vətəni özünə qürbət sanan kəs
Sənin anan ölüb, başın sağ olsun!

Hamı həşirdədir güzəranıyla
Ceyran belindədir bir loxma əppək.
Ana yaralıysa, oğul qanıyla
Onun yaraları yuyulsun gərək.

Yediyim, içdiyim dərddi, qəmdisə
Neyləmək? Bu ocaq, bu yurd mənimdir.

Göz yaşım axan yer qürbətimdisə,
Qanım axan yerlər, öz Vətənimdir.

Harda olursan ol, qəlbin fəhmi var
Səni torpaq çəkər, səni qan çəkər.
Qürbətdə Vətənçin gözü yaşlılar
Vətənin naminə canmdan keçər.

## TƏNHA MƏZAR

Yolun kənarında tənha bir məzar
Üstündə nə adı, nə soyadı var.
Ey yolçu, masını əylə bu yerdə
Soruş kimdir yatan tənha qəbirdə?

O, bir türk zabiti, qəhrəman, mətin!
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.

Uzaqdan hay verib sənin səsinə,
Gəldi, qayıtmadı öz ölkəsinə.
Düşmən səflərini o, soldan sağa
Biçib dəstəsiylə cəbhəni yardı.
Torpağın yolunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.

Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.
Uğrunda canını qurban verdiyi
Torpağı özünə vətən bildi o.

Yolçu, masınını bu yerdə əylə
O məzar önündə sən təzim eylə.

Səcdə qıl, dua ver onun ruhuna
Ayaq basdığın yer borcludur ona.

## QUL BAZARI

Gəldi başımıza min qan, min qada
Bunlar tarixdən də bizə tanışdır.
Bəşərin quldarlıq zamanında da
Bu millət qul alıb, qul satmamışdır.

Nədir qul bazarı, hardan çıxdı bu?
Öz halal yurdunda millət qul oldu?
Qış ötdü, yaz gəldi, bitmədi yonca
Xəzana döndümü şirin xəyallar?
Oturab səkidə küçə boyunca
Müştəri gözləyir bu təzə qullar.

Bir parça çörəkçin bu bədbəxılərin
Açılır başına min cür oyunlar-
Səhərdən axşama qaya capmağa,
Zibil dasımağa hazırdı onlar.

"Gəl" - deyə çağırsan, əllisi birdən
Cumacaq üstünə daş səkilərdən.
Özün seç, çəkinmir qul olduğuna
Az, ya çox, nə versən sükrandır ona.
Qulun nə haqqı var "Bu azdır" deyə
Sahib ağasıyla çənə döyməyə?

Satdıq Qarabağı uf demədən biz
Satdıq otelləri, zavodları da.
Min cür sərvətimiz, var-dövlətimiz
Satıldı, el qaldı quruca yurdda.

Biri-birimizi satırıq bu gün

Ayıra bilmirik doğrmadan yadı.
Vərdişə çevrilib satmaq bizimçün
Daha satılmağa bir şey qalmadı.
Hərraca qoymuşuq bu məmləkəti,
İndi də satırıq namus, qeyrəti.

Ünvan ləkələndi, ad ləkələndi,
Tapdandı min illik şərəf də, şan da.
Amandır, qoymayın, satılır indi
Millətin mənliyi qul bazannda.

Varlı tanıyıram vicdanı miskin,
Qıymaz bircə quruş var-dövlətindən.
Bir acı doydurmaq, nadan nə bilsin
Savabdır yüz Kəbə ziyarətindən.

Durduğumuz yerdə biz addım sayıb,
İrəli getmədik bir addım belə.
Daim dilədiyi haqqa çatmayıb,
Bu millət nəyisə gözləyir hələ.

Durur illər boyu durduğu yerdə
Bu yolun əvvəli, axırı məchul.
Millətin yarısı yad ölkələrdə,
Yarısı doğmaca vətənində qul.

Adamlar talanır öz mənzilində
Əcnəbi sahibkar lap ağ eylədi.
Aldığı zavodda ana dilində
Danışmağı bizə yasaq eylədi.

Əcnəbi ağadır sanki bu yurda
Sinəm ayaqlara yol olmuş bu gun.
Eloğlum həm yurdda, həm də kənarda
Hakim əcnəbiyə qul olmus bu gün.

Onlar iş axtarır yaşamaq üçün
Bu adi istək də çox imiş məgər?
Bizdən iş istəyən bu möhtacların
Yaşamaq haqqı da yox imiş məgər?

İstiqlal qazanıb biz elə bildik,
Qurtardıq milləti qəhr edən oddan.
Amma bilmədik ki, məhrum edildik,
Dağlarda qurutdan, aranda tutdan.

Əzilir, soyulur bu xalq günbəgün,
Dözümdə, səbrdə, vallah, fil olduq.
Bəlkə bu milləti qul eləməkçün
Biz qan bahasına müstəqil olduq?

Ölkəm müstəmləkə, yada qul ikən
Millət gəlmələrə qul ki, deyildi.
İndi bu məmləkət müstəqil ikən
Millət qula dönüb sındı, əyildi.

Ünvan ləkələndi, ad ləkələndi,
Tapdandı min illik şərəf də, şan da.
Amandır, qoymayın, satılır indi
Millətin mənliyi qul bazarında.

## SUAL

Zülmün sonu yox, haqq unudulmuşmu, ilahi?
Dünyada ədalət yasaq olmuşmu, ilahi?
Dillərdə yalan, amma könüllərdə həqiqət
Haqq zalimə, düz əyriyə qulmuşmu ilahi?

Meydan sulayan ağ yalanın al şərabından
Millət təpədən dırnağa sərxoşmu, ilahi?

Əzdikcə vətən oğlu vətən oğlunu qəsdən
Bilməm, əzənin qəlbi məgər daşmı, ilahi?

Vicdan kimi, insaf kimi hisslər içimizdən
Bir yolluq atılmşmı, qovulmusmu, ilahi?

Hər möcüzü idrak eləyərkən, bu bəlanı
Qanmaqda beyinlər bu qədər boşmu, ilahi?

# BAHAR HAVASIYLA

Qanadlı xəyallar göylərdən endi
Nə çırpıntı qaldı, nə istək, həvəs.
Qocaldım, könlümdən hər şey silindi
Sənin buraxdığın izlər silinməz.

Mənə qısqanardı bir vaxtlar hamı
Könlüm o günləri necə əzizlər.
Təzədən yasadır mənə dünyamı
Ömrümün açdığı cığırı - izlər.

O izlər könlümə çəkilən dağım,
Fərəhim, kədərim, xeyrim, şərimdir.
O izlər - içimdə gizli sığnağım,
Könlümdən süzülən sətirlərimdir.
Ömür yollarımın bir qarışında
Ayrı düsmərnişəm hisslərimdən.
Keçib bu izlərdən ömrün qışında
Bahar havasıyla yaşayıram mən.

Hələ bu dünyada nə qədər sağam,
Mən bu hava ilə yaşayacağam.
Ölərsəm, o izlər yaşanmış ömrün

Ayaq izlərinə dönəcək bir gün.

## BAYATILAR

Əzizim dərdə mərdim,
Düşməsin dərdə mərdim.
Mənə dərman neyləsin?
Tifilkən dərd əmərdim.

Bayatilar! Sözə ənbər qatılar,
Damarımda nəbz kimi atılar.
Bayatının atəşindən, odundan
Ürəyimdə neçə tonqal çatılar.

Bayatılar! Sinə dağı, göz dağı,
Məhəbbətin tüstülənən ocağı.
Bir millətin kimliyini bildirən,
Nəfəsindən ləpələnən bayrağı!

Bayatının boyasına boyandım,
Söz - qibləmdir, söz - eşqimdir, söz andım.
Bayatının tilsiminə düşüncə
Vallah şair olduğuma utandım.

## YAĞMASA...

İstəyim budur ki, yolum gen olsun
O nisyə gələcək qoy sənin olsun.
Vaxtın öz ünvanı, öz adıyam mən
İndinin, bu günün övladıyam mən.

Ümid-boynumuza keçən kəmənddir
Gözlə, öz-özünə -açilan deyil:

Əkdiyin o taxıl yağışa bənddir
Yağmasa, bir dənən beş olan deyil.

İstərəm xəyalım, yuxum çin olsun
İndi boş ümidlər ar gəlir mənə.
Səpdiyin o toxum qoy sənin olsun
Çörək ver mənə!

## MİLLƏTİM

Niyə bu günə düşdün
Ay mənim məmləkətim?
Özümə düşmən olub
Aşıb-daşan sərvətim.

Bir vaxt sən də xan idin,
Vaxta hökmüran idin,
Dövlətlər quran idin,
İndi sənə nə nə oldu
A qullaşan millətim?

Daşından da zər bitər,
Yeddi arxana yetər.
Dilənçidən beşbetər
Yoxsullaşan millətim.

Namusuyla, arıyla,
Keçdiyi yollarıyla,
Böyük oğullarıyla
Oğullaşan millətim.

Savaş hünərləriylə,
Qəhrəman ərləriylə,
Böyük zəfərləriylə
Nağıllaşan millətim.

**Dəmir qıran dişiylə,
İgidlik vərdişiylə,
Öz şanlı keçmişiylə
"Sağollaşan" millətim.**

**Bu xalqın öz övladı
Öz-özünü ovladı.
Səbrini buxovladı
Səbri daşan millətim.**

**Necə dözdün bir belə
Müsibətə, müşkülə?
Çəkdiyi sitəm ilə
A yollaşan millətim?**

**Nə gündəsən, nə gündə?
Qor qalmayıb külündə.
Qeyrətsizlər əlində
Bu gün çaşan millətim.**

**İstəyirəm çaşmaya,
Dərdiylə yollaşmaya,
Bir daha qullaşmaya
Xan oğlu, xan millətim.**

## GÖRMÜR, GÖRÜR

**O, namaz üstündə əl açıb göyə
Allaha üz tutub, "Ya rəbbim", - deyə
Onun duasına qarısır ahı
O, bu dəm elə bil görür Allahı,**

**Gözə görünməzdir onun pənahı
Köməkcün əlini açmaz bir kəsə.**

Necə gorə bilər, axı, Allahı
Allah, o mömünün ürəyindəsə?

Görmür Allahını namaz qılanlar
Allahsa, onları görür bu anlar.

## YARƏB

Rəhm eylə özün sən mənim övladıma, yarəb,
Rəhm eylə mənim naləmə, fəryadıma, yarəb.

Məhrum eləmə sən onu dünya işığından,
Sənsən pənahım, sən yetiş imdadıma, yarəb.

Səndən umuram, ummuşam hər dərdimə çarə,
Bu xisləti mən borcluyam öz zatıma, yarəb.

Şükr eyləmişəm mən ki, qədər-qismətə daim.
Döndərmə qədər-qisməti cəlladıma, yarəb.

Xoşbəxt qulunun Bəxtiyar adlanması səndən,
Uyğun elə sən taleyimi adıma, yarəb.

Rəhm eylə, özün sən mənim övladıma, yarəb,
Rəhm eylə mənim naləmə, fəryadıma, yarəb.

## CƏLALƏDDIN MÖVLANAYA BƏNZƏTMƏLƏR

Mən yoxam, adicə bir adam, Allah,
Sənə catmaq üçün fəryadam, Allah.
Qul azad olanda şad olmalıdır

Qulun olduğuma mən şadam, Allah.

Dövr eylədikcə gizlicə axşam-səhər zaman,
Minlərlə aşikarları pünhan edər zaman.
Eşqində sağ qalanlar ölür, ölmədən qabaq
Eşqimdə ölmüşəm, diri qalmaqçün hər zaman.

## NƏFSİMİZ

*Bizdə bu soyaq qanları neylərdin ilahi ?*
*M. Ə. Sabir*

Qacqının payına göz dikən alçaq,
Sənə hansı haqla mən insan deyim?
Millətin qanını soran qurumsaq,
Mən sənin adına soxulcan deyim.

Bəs hanı insanlıq, bəs hanı vicdan?
Tamah insanlıqdan qabağa düsdü?
Bəlkə də bu dövran dolandıgından
Qibləmiz gah sola, gab sağa düsdü.

Bu, sənin xalqına ürəyi yanan
Özgə bir millətin verdiyi paydı.
Ey öz millətinə yaddan yad olan,
Paya göz dikincə gözün çıxaydı.

Xalqının dərdinə özgələr qədər
Yanmadın, bəs bunu niyə qanmadın?
Yetim qismətini yeyib sərasər
O şisən qarnından heç utanmadın.
Biz necə məxluquq, anlamıram mən
Nəfsimiz ağırmıs qeyrətimizdən.

# GERÇƏK GÜNAHKARDIR

Qəribə əyyamdır, üz astar olmuş,
Bazarda satan çox, amma alan yox.
Mənim ürəyimdə indi yel vurub,
Yengələr oynayır, çəpik çalan yox.

Azadlıq qollarda bir kəmənd olub,
İndi qarğalar da gülə bənd olub,
Fələyin gərdişi tərs-avand olub,
Gerçək günahkardır, amma yalan yox.

Maşallah, çıxmışıq göyün seyrinə,
Bilən yox bu işin şəri, xeyrinə.
Qılan səcdə qılır tək öz xeyrinə
Haqqa səcdə ilə namaz qılan yox.

Bir ovuc torpaqdır hamının sonu,
Sağ ikən bir kimsə düsünmür bunu.
Hamımız acgözük, Allah xofunu
Qəlbinə, ruhuna, vallah, salan yox.

Ölülər diridir, dirilər ölü,
İstidir dünyanın odundan külü.
Doğru danışanın kəsilir dili
Öldürən haqlıdır, indi ölən yox.

# AĞIL BAŞQA, ÜRƏK BAŞQA

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.
Ətri də xoş, rəngi də xoş

Gül başqadır, çiçək başqa.
Hər diki yoxuş bilmə, gəl,
Hər meyi meyxoş bilmə, gəl.
Hər uçanı quş bilmə, gəl
Quş başqadır, böcək başqa.

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm,
Sən çəkənsən, mən gələnəm
Oəmi başqa, yedək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur,
Xeyirlə şər sağ - solumdur
Şeytan başqa, mələk başqa.

Bir diləyə mən calandım,
Gah qazandım, gah talandım,
Ömrüm boyu haçalandım
Ağıl başqa, ürək başqa.

Dilək oldu mənim adım,
Pərvazlandı qol-qanadım,
atmadı səbrim, inadım
Əməl başqa, dilək başqa.

## ALLAHDAN QANAD İSTƏDİM

*(son variant)*

Allahdan qanad istədim,
Allah mənə xəyal verdi.
Bu qanadlı xəyal mənə
Yaşamağa macal verdi.

Allahdan fərəh istədim,

Allah mənə kədər verdi.
Bu kədərim, qədərimə
Tamam başqa qədər verdi.

Allahdan ağıl istədim,
Allah mənə ürək verdi.
Bu ürək mənim ömrümə
Qəm üstündən qəm gətirdi.

Allahdan dözüm istədim,
Allah mənə qəzəb verdi.
Mən Allahdan rəhm istədim,
Mənə bollu əzab verdi.

Mən Allahdan haqq istədim,
Zülmünü gen-bol eylədi.
Əzabların kotanına
O, sinəmi yol eylədi.

## AXI, DÜNYA FIRLANIR

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığıımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb-daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı, dünya fırlanır.

Dünən düz sandığımı bu gün əyri sanıram.
Bəzən olur, özümdən özüm oğurlanıram.
Hər il başqa arzunun başına fırlanıram,

Niyə də fırlanmayım, axı, dünya fırlanır...

Çox əyilən görmüşəm, əyilməyən başları.
Sular duruldu, gördük dibindəki daşları
Ünvanmı dəyişdi dünənin alqışları;
Niyə də dəyişməsin, axı, dünya fırlanır...

Necə dönür bu dövran, necə dönür bu gərdiş,
Tazılarm üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı, dünya fırlanır.

əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım,
Bütlər gəldi və getdi, birinə inanmadım
Niyə inanmalıyam, axı, dünya fırlanır.

Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanm xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı, dünya fırlanır.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır,

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir dığırlana.
Çərxi-fələk istəyir lap dolana tərsinə,
əqidəmi heç nəyə dəyişmərəm mən yenə.

# HAMIYA BORÇLUYUM

Atama, anama, muallimlərə,
Yoldaşa, sırdaşa, daha kimlərə
Borçlu olduğumu düşündükçə mən,
Yumağa dönürüm xəcalətimdən

Ömür yollarında mən büdrəyəndə
Çoxları tutmuştur kolumdan mənim.
Hərkəsi kəndimə dost bilip mən də
Sanırım, dünyada yoxtur düşmənim.
Pınardan eyilip su içiyorsam,
Həm ona borçluyum, həm suya borçlu.
Uyup içimdəki bir kadir səsə
Diyorum, borçluyum, hamıya borçlu!
Bu elin xeyrını, şərrini görcək
Həm yasa borçluyum, həm toya borçlu.
Vatanın ən sadə vatandaşı tək
Hamıya borçluyum, hamıya borçlu!
Uğur arzuladı yoluma kimsə
mən onun uğurlu yoluna borçlu.
hardaysa, kimisə incitmişimsə
Kəndimi sanırım mən ona borçlu!
Düz iş yapmayanda həggə əğildim,
"Həgsızım" –deməktən heç utanmıram.
Özümü hamıya mən borçlu bildim,.
Kimsəyi özümə borçlu sanmıram.
Özgədə ararsak hər nagisliği
Hərkəs iyiliktən gərək əl çəkə.
Kötü adam varsa... onun pisliği
Sənin pisliğindən çimlənip bəlki.
Düzlük əğriliğə səcdə gılanda
Dünya kəndisinə kəsilir ganim
Özgənin dərdinə ortak olanda
Sanki azalıyor öz dərdim mənim
Milləti kəndinə borçlu sananlar
Kimlərdir?
Milləti, xəlgı dananlar

Millətə kəndini borçlu sananlar
Kimlərdir?
Millətçin mum tək yananlar!

Biz yüzü karayız millət yanında,
Hərkəsin bu halka, yurda borcu var.
Millətin bugünkü güzəranında
Sən də günahkârsın, mən də günahkâr.

Borçtan, həggımızı iləri sandık,
Tuttu bağçamızı şeytan alağı
Əğər borcumuzu biz anlasaydık,
Darda galır mıydı Vatan toprağı?

harda saklanmışsın, ey Vatan oğlu?
Vatanın başından duman, çən geçir.
Millətə borcunu ödəmək yolu
Vatana, millətə sevgidən geçir.

## MƏNDƏN XƏBƏRSİZ

Ömrün fasılları tez gəldi gəçti.
Yazı bəhərlidir, kışı bəhərsiz
Bir gün gördüm ki, güçtən düşmüşüm.
ıllar öz atını sürdü əğərsiz.
Ülkü olan yerə baş goyan ıllar
Gamlı gözlərimə yaş goyan ıllar
Ey yaşım üstünə yaş goyan ıllar,
hara gaçarsınız məndən xəbərsiz?
Ey ömür! Görünür artık sahilin,
Əlin kısıldıkça uzanır dilin.
Ömürdən verdiğim yetmiş üç ılın
Zəhiri yetərli, balı yetərsiz.
Öz omuz yüküdür hərkəsin yaşı
Derdi -sırdaşıdır, fikri- yoldaşı,

Dönüp mizacıma gəhər gözyaşı.
Senvinç də, kədər də, geçməz kahırsız.
Fikirlər selində axandan bəri
Ayıramadım mən hayırdan şərri
Dökülmüş ömrümün yaprak ılları
Bahçəsi viranə, bağı çəpərsiz
Gönül o gönüldür, koca yaşımda,
Fikirlər kaynaşır genə başımda
genə hücumdayım söz savaşımda,
Sözüm təpərlidir, özüm təpərsiz.

## Allah

İdraktə yol açmış gəcədən gündüzə Allah.
Güldürməsən öz gönlünü, gülməz üzə Allah.
Dünyaya şafaklar kimi Tanrım səpələnmiş ,
gəlbin gözü yanmazsa, görünmez gözə Allah.

Allah! Biliriz cisim dəğil, ya nədir Allah?
En yüksək olan hagta, hakikattədir Allah.
Dondunsa Təkâmül və güzəlliklər önündə,
Dərkət, bu taaccübde , bu hayrəttədir Allah.

Bildik, biliriz, gizlidir insandaki kudrət,
Hərkəə onu fəhmetməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hürmət,
İnsanlığa hürməttə, liyakattədir Allah.

Gərçək də bu ki: Gizlidir hər zərrədə vahdət.
Bir zərrə ikən küllə kavuşmak ulu niyət.
Gördüklərimiz zahiridir, batna nüfuz et.
Batındaki, cəvhərdəki fıtrattadır Allah.

Fıtrat da yatar sözdə, sözün öz yükü fikrim,

Seçmiş, seçəcək daima tüydən tüyü fikrim.
mən bir ağacım, yaprağı sözler, kökü fikrim,
Sözlərdə değil, sözdəki hikməttədir Allah.

İnsan! Təpədən-dırnağa, sən arzu, diləksin.
Nəfsində doyumsuz, fakat aşkında mələksin
Zulmün üzünə haqq denilən silləni çəksən,
Silləndə mühürlənmiş o gayrettədir Allah.

Cahil İnər alçaklığa, öz gəlbinə inməz,
Vicdandan əğər dönsə də, hayrından o dönməz.
Zulməttə, cəhaləttə, adavəttə görünməz,
İlgarda, sadagəttə, muhabbəttədir Allah.

## Kafi mi?

Allah'ın verdiği bu aciz ağıl
O'nu derk etmeye bizə yetər mi?
Ne gədər istəsən göyə səcdə kıl,
Görünməzi görmək gözə yetər mi?

Elimiz uzundur, aklımız gödək
Bir daşın üstündə bir bostan əkmək
İnsan yürəğinin rəsmini çəkmək
Allah'ım, bir rəngə, boza kafi mi?

gəlbimi şiirimlə diyəndən bəri,
Sandım sözümdədir fikrin cövhəri
Sorurum duyduğum dərinlikləri
Hissim gədər demək sözə kafi mi?

## dasız şiir

Gözümdə göllәndi, güllәndi yaşlar
Dağıldı başımdan dostlar, tanışlar
Bedbahtlık- ürәğә çapraz dağ çәkәn
Tәkliğin zamanda ikiz gardәşi
Teklik – gönül sıxan, tәklik bel bükәn
Dünyanın әn böyük, әn ağır daşı!

Yalan min boyalı, gerçәk boyasız
Yalan-kıpkırmızı, gerçek- ak olur
Yalan gışgırıkçı, yalan hayasız
Gәrçәksә hәr zaman utancak olur.

Akıl Başka Yürek Başka
Birbirine benzese de
Yel başkadır, külek* başka
Itrı da hoş, rengi de hoş
Gül başkadır, çiçek başka.

Her diki yokuş bilme gel
Her meyi meyhoş bilme gel
Her uçanı kuş bilme gel
Kuş başkadır, böcek başka.

Her derdine ortak benim
Her ağrını ten bölenim*
Sen çekensin, Ben gelenim
Gemi başka, yedek başka.

Hakkın yolu öz yolumdur
Eğilmeyen düz yolumdur,
Hayırla şer sağ solumdur
Şeytan başka, melek başka.

Bir dileğe ben calandım*
Kah kazandım, kah talandım.
Ömrüm boyu haçalandım*

Akıl başka, yürek başka.

Dilek oldu benim adım
Pervazlandı kol kanadım
Yetmedi sabrım, inadım
Amel başka, dilek başka.

## Akıl Başka Yürek Başka

Birbirinə bənzəsə də
Yel başkadır, külək başka
ətrı da xoş, rəngi də xoş
Gül başkadır, çiçək başka.

Hər diki yokuş bilmə gəl
Hər məyi meyxoş bilmə gəl
Her uçanı guş bilmə gəl
guş başkadır, böcək başka.

Hər dərdinə ortak mənim
Hər ağrını tən bölənim
Sən çəkənsin, mən gələnim
ğəmi başka, yedək başka.

Haqqın yolu öz yolumdur
Eğilməyən düz yolumdur,
Hayırla şər sağ solumdur
Şeytan başka, mələk başka.

Bir diləğə mən calandım
gah kazandım, gah talandım.
Ömrüm boyu haçalandım
Ağıl başka, yürək başka.

Dilək oldu mənim adım

Pərvazlandı gol ganadım
Yetmədi sabrım, inadım
Aməl başka, dilək başka.

## Ana Dili

Dil açanda ilk dəfa 'ana' söylərik biz
'Ana dili' adlanır bizim ilk dərsliyimiz
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil - bizim ruhumuz, eşgimiz, canımızdır,
Bu dil – birbirimizlə əhdi-peymanımızdır.
Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi
Bu dil - əcdadımızın bizə goyup gətdiyi
Ən gıymətli mirasdır, onu gözlerimiz tək
Goruyub, nəsillərə biz də hediyyə verək.

Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddetinden,
Bu torpağdan, bu yerdən,
Elin bağrından gopan yanığlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağ saçlı babaların aglından, kâmalından,
Düşmən üstüne cuman o gıratın nalından
Gopan səsdən yarandın.
Sən halgımın aldığı ilk nəfəsdən yarandın.

Ana dilim, səndədir xalgın ağlı, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sən'əti,
Ey dilim, gudrətinlə dünyalara yol açmış.
Səndə mənim xalgımın gahramanlığla dolu
Tarihi verağlanır.

Səndə neçə min illik mənim mədəniyyətim
Şan-şöhrətim sahlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan!
Millətlərə halglara halgımızın adından
Məhəbbət dəstanları yaradıldı bu dildə.

Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi
Bu dil - əcdadımızın bizə goyup getdiyi
Ən gıymətli mirasdır, onu gözlərimiz tək
Goruyub, nəsillərə biz də hədiyyə verək.

## Baş Açmadim Ömrüm Boyu mən Yazik

Baş açmadim ömrüm boyu mən yazik
Iblisindən, mələgindən dünyanin
adəm satti bir əlmaya cənnəti
tora düstü kələgindən dünyanin

Nə güzəldir, yürək geniş, söz açik
Yaşamadim bir sevdami yarimcik.
Əzab adli dəgirməndan narin cik
Geçəcəksin eləgindən dünyanin

Arzum için bir meləyən cüyürdüm
o təpədən bu təpəyə yüyürdüm
niyə gorxum kəfənindən ? Nə gördüm
Bəşigindən, bələgindən dünyanin

Biz çzümüz özümüzdən öç aldik
geçən günə gələn günü bac aldik
ömrümüzün yarisinda gocaldik
Silləsindən kötəgindən dünyanin

Gönül üzgün, hayal küskün dərbədər
özün söylə zulm olar mi bu kadar?
Yedəkləyip arkasinca sürüdər
Bərk yapissan ətəgindən dünyanin.

Gönül düstü bin arzunun izinə
Biləmədik egrisi nə düzü nə?
Simdi kəfən örüyoruz özünə
Öz küləndən, çiçəgindən dünyanin.

## Elvəda

Diyorum;
Səfası bitti ömrümün,
Şimdi dağa çıxarım, düzə elvəda.
Düzə duman çökər, düzə gar yağar,
Bahara elveda, yaza əlveda...

Baxtiyar;
Dərində sızlayıp yaran,
gəlbini dağlayıp üzər hərzaman.
Gözə hüzün çökər, gözə yaş dolar,
Sevincə əlveda, düşə əlveda...

Şimdi özkökündən süzülən mənim,
Özgə budağlara dizilən mənim,
Şimdi nə sən sənsin nə də mən mənim,
Biz ki biz dəğiliz bizə əlveda.

## Yol İşareti

Sevdinsə ...
Eşgında yitip yox oldun,
garıştıracaxsın günü ,ayları .
Sevgi yollarında nə gaidə, ganun
Kəndin aşmalısın bu dolayları .

Eriyip kəndini yox sanacaksın
Bu dərdin olmayıp özgə çarəsi
Sən hız hız 'kazaya' uğrayacaksın
Yoxtur bu yollarda yol işarəti

## Gereksiz

Od almazdı bir zaman bu dərdimdən o dərdim.
“mən çıxmaya təpə yox, yücə bir dağ isterdim.”
Bircə diki çıxmaya şimdi furasətim yox.
Ayag üsttə durmaya bir ləhzə tagatim yox.
Kuvvətimi yitirip mən özümü danmışım
Ömrü günü harcayıp, şan şöhrət gazanmışım.
Şimdi şan şöhrətimdən nârazıyım yoxsa mən?
Məgər bu dəgil miydi gecələri eritən
Gündüzləri öyütən zahmətimin məramı?
Megər gazanmadım mı bu adın hesabına
Bu günkü ihtiramı?
mən içəri girincə ayağa galxsalar da,
Məclislərin başında məni oturtsalar da
Hər şey mənim gözümdə şimdi başka rənk alıp.
Tanıdığım bu dünya mənim kimi gocalıp.
Şimdi özüdi içimdə batıp unutulmuşum,
Artıx kəndim için de ben gereksiz olmuşum.
(2001)

**Gözle Germek**
Ey dost, birden bire geçip zil sime(1) ,
Dedin: -inanmam görmediğime.

Dedim: -sen arifsin bense bir avam.
Gözle gördüğüme bense inanmam.
Bilmirem gözüme görünen dünya
Aslında gerçek mi, ya sırlı rüya?

İnişli yokuşlu bir ömür sürüp
Bildim, sağ solumdur, hayrım, şerrim,
En büyük gerçektir aklımla görüp
Ama gözlerimle görmediklerim.
Göz bizi aldatır, akla borçluyuk
Aklın gözleri var, gözün aklı yok.

10 Ocak 2002

## Neylemeli

Guş oxudu, fərahlandık
Daş oxusa neyləməli?
Örümcəksə tor toxudu
Kol toxusa neyləməli?

Dedim, dünya bir tamaşa
Hər arzumuz gəldi başa
Dediklərin baştan başa
Boş uykuysa neyləməli?

Səsimiz yox, küyümüz var
Oxumuz yox, yayımız var
Demə gəlmiş çayımız var
Şəkər yoxsa neyləməli?

Yalanlardan cana doyduk
Ona uyduk, buna uyduk
Et kokuştu, duza koyduk

**Duz kokarsa neyləməli?**

**19 Şubat 2000**

## Sükut, Hayal, Muhabbət

**Müslüman'ın bir saatlik təfəkkürü bir yıllık nafilə ibadəttən evladır.**
**Hadis**

**mən sükuta göçmüşüm, sükut mənim oylağım.**
**mən hayale göçmüşüm,**
**Hayal- arzularımı haqiqata götürən**
**Elimdəki bayrağım.**
**Hayal göktə kanadım.**
**Yerdə çapan Kırat'ım,**
**Dənizdəysə yelkənim.**
**Sükut- mabedim mənim!**
**Bıkmışım bu dünyanın hayli küylü səsindən**
**Sanırım kurtarmışım yerin cazibəsindən.**
**Yerdə hər şəy ölçülür, hər şeyin bir haddi var.**
**Yerdə deryaların da öz cəzri var, məddi var.**
**Yerin ganunlarına baş əyməyən xəyalim**
**mənim sonsuz aşqımı sonsuzluğa daşıyor.**
**Sükutumla gol gola orda rahat yaşıyor**
**Bu hayatın şartı yox.**
**Varla yoxun dünyada mənim için farkı yox.**

**Kavuştuğum sükutu ama işitirim mən**
**İşittiğim bu sükut daha güçlü səslənir**
**Dünyanın səs küyündən.**
**Bəlki mənim içimdə çarpışan fikirlərin**
**Gür səsidir bu sükut.**
**Arzumun karşıdaki əngəllərə vurduğu**

Darbəsidir bu sükut.
Hayal, sükut, muhabbət- şərəf yolum, şan yolum
Allah'ın dergâhına məni götürən yolum.
Sükutu anlamayan əbədi gafləttədir.
Bir çerçeve içinde hangiyse bir haddedir.
Sükutun feryadını işitenler, duyanlar
Sonsuz ibadettedir.

Nisan 2001

## Vicdan

İki yolun ayrımında mən durup
Gah o yandan, gah bu yandan gorxarım
Devdən dəyil, sinək gədər gücüylə
mən özü dəv sayandan gorxarım
Haqq evində haq divanı gurulmuş
Hər gazancın öz giyməti sorulmuş
İddiası boynumuza yüx ılmuş
Bağışlanan şərəf şandan gorxarım

Bu dünyadan umacağım mizandır
gorxtuğum kəs bu mizanı bozandır
Tox hərifin kudurması, yamandır
Acandan yox, mən doyandan gorxarım

Uyarsak biz nəfs adlanan elçiyə
Tükürürüz vicdan kəsən ölçüyə
Odur verən düz, gıyməti hər şeyə
Vicdanından gorxmayandan gorxarım

*********************************************

Gəcil

WEB : www.gajil.20m.com , Email: webmaster@gajil.20m.com